**İtalo Kalvino**

**Tərcümə etdi: Qismət Rüstəmov**

# Böyük balıqlar, balaca balıqlar

(Hekayə)

***Zefferinonun atası qəti çimərlik paltarı geyməzdi. Əynində həmişə köynək və ətəyini qatladığı şalvar olar, ağ papağını gözünün üstünə basıb gün boyu qayalıqlarda hərlənərdi. Ən böyük azarı qayalara yapışan, hər birinin sərt qabığı az qala daşlaşan Çinpapaq midyələr, yastı molyuskalar idi. Zefferinonun atası onları ancaq bıçaqla qopardı. Hər bazar günü, gözündə iri eynəyi, sahil burnundakı qayaları bir-bir yoxlayardı. Balaca səbətini doldurana qədər ordan getməz, bəzilərini ordaca yeyər, islaq və turşməzə əti qaşıq kimi tutduğu qabıqdan sümürər, bəzilərini isə səbətinə atardı. Arada başını qaldırıb dənizə baxar və "Zefferino, haradasan?" deyə qışqırardı.***

***Zefferino günortadan sonraları dənizdən çıxmazdı. Ata-oğul birlikdə sahil burnuna gələr, sonra atası oğlunu orda qoyub molyuskaların dalınca gedərdi. Qayalara yapışmış, inadkar Çinpapaq midyələr Zefferinonun diqqətini çəkmirdi; əvvəllər xərçənglərə, sonra osminoqlara, meduzalara meyil salmış və yavaş-yavaş hər növ balıqla maraqlanmağa başlamışdı. Yaz aylarında get-gedə daha çətin və ustalıq tələb edən işlərlə məşğul olurdu: artıq yaşıdları arasında sualtı tüfəngdən onun qədər bacarıqla istifadə edən yox idi. Ən yaxşı üzgüçülər bəstəboy və arıq-tırıq olanlardan çıxır, Zefferino da eləydi. Onu sahildə atasının əlindən tutub gedərkən görsəniz, elə bilərdiniz ki, saçı dibindən keçəl olan bu ağzı ayrıq uşağı dümsükləməsən tərpənməz, amma elə ki, dənizə girdi, heç kim onunla aşıq ata bilməzdi, özü də dibdən üzməkdə əlinə su tökən yox idi.***

Zefferino o gün bütün sualtı alət dəstini hazırlamışdı. Şnorkeli onsuz da vardı, keçən il nənəsi hədiyyə vermişdi; ayaqları balaca olan əmisi uşağı öz üzgəclərini ona vermiş, tüfəngi isə əmisigildən əkişdirmişdi, amma atasına demişdi ki, borca götürmüşəm. Əslində çox diqqətli, hər şeyi təmiz və yaxşı istifadə etdiyi üçün ona güvənir, nə istəsə verirdilər.

Dəniz tərtəmiz və gözəl idi. Atası nə qədər xəbərdarlıq etsə də, Zefferino "Yaxşı, ata" deyəndən sonra dənizə girdi. İndi o bu sifətdə insana oxşamırdı: sifətində şnorkeli, tənəffüs borusu, ayaqlarında üzgəcləri – balıqlardakı kimi, əlində isə bir az mizrağa, bir az tüfəngə, bir az da çəngələ oxşayan nəsə bir alət. Amma bu qıraqdan belə görünürdü, üzgəclərini tərpətməsindən, qoltuğunun altındakı tüfəngi tutmasından, dənizin üzünü öpüb dərinlərə dalmasından bilinirdi ki, Zefferino ən çox indi özüdür.

Dənizin dibi dayazlıqda daş-kəsək idi, sonra bəzisi çılpaq və aşınmış, bəzisi qəhvəyi, sıx yosunlarla örtülü qayalar başlayırdı. Hər qaya çıxıntısından, axıntıda titrəşən hər yosun topasından iri bir balıq çıxa bilərdi; şnorkelin pəncərəsindən Zefferinonun maraqlı gözləri diqqətlə künc-bucağı araşdırırdı.

***Birinci dəfə görəndə dənizin dibi adama gözəl gəlir, amma hər şeydə olduğu kimi, əsl gözəllik hər tərəf qulac-qulac kəşf ediləndən sonra başlayır – elə bil, dənizin dibindəki görüntüləri içirsiniz, ha gedirsiniz, sonu yoxdur. Şnorkelin şüşəsi kölgələri və rəngləri udmağa müntəzir duran azman bir göz kimidir. Budur qaranlıq qurtarır, qayalıqlardan çıxırsan; dibdəki qumluqda dalğaların ayaq izi gözə dəyir. Göz vuran parıltılar və tilov dalınca düşən işıltılı balıq sürülərinin arasından süzülüb gələn günəş şüaları buracan gəlib çatır; xırda balıqlar ox kimi süzürlər, sonra qəfildən hamısı bir yerdə başqa tərəfə dönürlər.***

Dənizin dibindən quyruğunu torpağa çırpan sarqan balığının yaratdığı xırda bir toz buludu yüksəldi. Balıq tilova üz tutduğu üçün heç nədən xəbər yox idi. Zefferino dibdən üzürdü, sarqan zolaqlı böyrünü bir-iki dəfə çevirərək dalğın-dalğın səntirlədikdən sonra birdən uzaqlaşmağa başladı. Balıqla balıqçı hər yanı məsaməli və az qala çılpaq olan yosunlu qayalıqların arasından üzdülər. Zefferino, "burada artıq əlimdən qaça bilməz" deyə düşündü və elə həmin an balıq yenidən yoxa çıxdı. Dəliklərdən, oyuqlardan sıra-sıra hava qabarcıqları çıxır, sonra birdən kəsilir və başqa tərəfdə yenidən başlayırdı, pusquya yatmış kimi gözləyən dənizlaləri par-par yanırdı. Sarqan bir yuvadan gizlicə başını çıxardı, sonra başqa oyuğa girdi və çox keçməmiş uzaqdakı bir dəlikdən çölə çıxdı. Sivri bir qayanın ətrafında var-gəl edib istiqamətini dəyişdirdi, dibə üzdü; Zefferino aşağıda parlaq yaşıl bir yer gördü. Balıq həmin işıqda gözdən itdi, Zefferino da dalınca üzdü.

Qayanın ətəyindəki qövsü keçdi, yuxarıda suyu və səmanı gördü. Hər tərəfdə rəngli daşların kölgəsi oynaşır, açıq dənizdə yarısı suya gömülmüş bir qaya parçası görünürdü. Zefferino üzgəclərini işə salıb irəli atıldı, sonra nəfəsini dərmək üçün yuxarı üzdü. Şnorkelinin içinə girmiş bir-iki damcı suyu tənəffüs borusundan çölə üflədi, amma başı suyun altında qaldı. Sarqanı yenidən tapmışdı; özü də indi bir yox, iki dənə idilər! Elə təzəcə nişan almışdı ki, sol tərəfində sakit-sakit üzən bir balıq sürüsü gördü, sağından da par-par yanan başqa bir sürü keçirdi. Bura balaca bir gölü xatırladan, bol balıqlı əsl ov yer idi; Zefferino hara baxsa, qaynaşan üzgəclər, par-par yanan pulcuqlar görür, sevincdən və təəccübdən tətiyi çəkmək belə ağlına gəlmirdi.

Tələsməməli, balıqları qorxudub qaçırmadan ən yaxşı ovun hansı olduğunu araşdırmalı idi. Başını suyun altında saxlayan Zefferino ən yaxın qayalığa üz tutdu və suya sürüşmüş bir əl gördü. Su sakit idi, amma onun dümdüz, tərtəmiz səthində yağış damcıları düşürmüş kimi iç-içə keçmiş iri halələr əmələ gəlirdi. Uşaq başını qaldırıb boylandı, qayanın üstündə üzü üstə uzanmış, ətli-budlu, çimərlik paltarında bir qadın günəşlənirdi. Və ağlayırdı. Yanaqlarından süzülən damla-damla göz yaşları dənizə düşürdü.

Zefferino şnorkelini alnına sıyırıb "Şeydi, üzrlü sayın" dedi.

Kök qadın "Zərəri yoxdu, bala," dedi və ağlamağına davam edərək, "sən ovlanmağında ol" deyə əlavə etdi.

Zefferino, "Bu yer balıqla doludu," dedi, "görürsünüz nə çoxdu?"

Kök qadın başını qaldırıb yaşlı gözlərilə irəli baxırdı. "Görməmişəm, necə görüm, ağlayıb kiriyə bilirəm ki?"

Söhbət dəniz və balıqlardan gedəndə od-alov olan Zefferino iş insanlara gələndə o saat ağzı ayrıq, pəltək uşağa çevrilirdi. "Bağışlayın, madamg" Sarqanın dalınca düşmək istəyirdi, amma ağlayan kök qadın görmək elə qeyri-adi bir şey idi ki, sehrlənmiş kimi ağlı başından çıxmışdı, qeyri-ixtiyari ona baxmağa davam edirdi.

Kök qadın nəcib, azca da burnundan gələn səslə cavab verdi: "Mən madam deyiləm, bala, mənə madmazel de. Madmazel de Magistris. Sənin adın nədir?"

"Zefferino."

"Afərin sənə, Zefferino. Necə deyirlər, işin avand olsun?"

"Bilmirəm necə deyirlər. Hələ heç nə tutmamışam. Amma bura yaxşı yerdi."

"O tüfənglə ehtiyatlı ol. Özüm üçüm demirəm. Mən onsuz da bitmişəm. Sənə görə deyirəm, ehtiyatlı ol, özünü yaralama."

Zefferino qadına dedi ki, narahat olmasın. Qayaya dırmaşıb qadının yanında oturdu və bir müddət onun ağlamağına tamaşa etdi. Qadın bəzən kiriyən kimi olur, qırpırmızı burnunu çəkə-çəkə başını yelləyirdi. Amma elə həmin andaca gözlərinin çeşməsində yığılıb qalan təzə-tər damlalar yanaqlarından daşıb aşağı yuvarlanırdı.

Zefferino bilmirdi neyməsin. Bir qadını ağlayan görmək ürəyini yandırırdı. İnsanın qəlbini sonsuz sevinc və istəklə dolduran saysız-hesabsız balıqla dolu bu gözəl məkanda necə dərdlənmək olardı? Amma qarşısında oturan qadın göz yaşlarına qərq olmuşkən o necə yamyaşıl sulara dalıb balıq dalınca gedə bilərdi? Havada bir-birinə zidd olan, qovuşması qeyri-mümkün iki duyğu vardı. Zefferino iki duyğunu birdən dərk edə bilmir, nə birindən, nə də digərindən vaz keçə bilirdi.

***'Madmazel,"– dedi.***

***'Buyur qadası."***

***'Niyə ağlayırsız?"***

***'Sevgidən sarı heç bəxtim gətirmir, ona görə."***

***'Belə de!"***

***'Sən başa düşməzsən, hələ uşaqsan."***

***'Şnorkellə üzmək istəyirsiz?"***

***'Sağ ol, sevə-sevə. Gözəldi?"***

***'Dünyanın ən gözəl şeyidi."***

Madmazel De Magistris ayağa qalxdı və çimərlik geyimini səhmana saldı. Zefferino şnorkelini ona verdi, necə taxacağını başa saldı. Qadın bir az istehzalı, bir az da utana-utana şnorkeli başına keçirdi, amma şüşənin arxasından hələ də doluxsunmuş gözləri görünürdü. Suiti kimi astagəlliklə dənizə girdi və üzünü suya daldırıb çabalamağa başladı.

Zefferino da tüfəngini qoltuğunun altına basıb suya tullandı.

Madmazel De Magistrisə tərəf çığırdı: "Balıq görən kimi mənə xəbər verin." Zefferinonu dənizdə çox ciddi olur, onunla birgə ovlanmaq şərəfini başqalarına çox nadir hallarda bəxş edirdi.

Amma madmazel başını qaldırır və yox deyirmiş kimi işarələr edirdi. Şnorkelin şüşəsi tərləmişdi və üzü görünmürdü. Sonra şnorkeli çıxartdı. "Heç nə görmürəm, ağlamaqdan şüşə tərlədi. Bacarmayacam. Üzrlü say." – dedi. Və dənizin ortasında təzədən ağlamağa başladı.

Zefferino öz-özünə "İşə düşdük də" – dedi. Özüylə şnorkelin şüşəsini təmizləyəcək bir dilim kartof götürməmişdi, amma tüpürcəyilə bacardıqca silərdən sonra şnorkeli özü taxdı. Sonra üzünü qadına tutub dedi: "Görün mən nətər eləyirəm." Zefferino başını suyun altında tutaraq üzgəclərini tərpəşdirib irəli atılır, yanpörtü üzən qadın bir qolunu qabağa uzadıb o birini bükür, başını dik tutub nəhayətsiz kədər içində balaca oğlanla yanaşı üzürdü.

***Madmazel De Magistris bacarıqsız qulaclarla yanpörtü və pis üzürdü. Metrlərcə aşağıda balıqlar qaynaşır, dəniz ulduzları ilə mürəkkəbbalıqları üzür, anemonlar ağızlarını açıb yumurdular. Zefferinonun gözləri qarşısında insanı məst edən bir mənzərə açılmışdı. Bura dərin idi, dibdəki qumlara səpələnmiş balaca qayalıqların arasındakı yosun yumaqları dənizin çətin eşidilən axıntısı ilə xəfif-xəfif titrəyirdi. Amma yuxarıdan baxanda sakit dənizin və yosun yığınlarının arasında dibdəki qayalıqlar yellənirmiş kimi görünürdü.***

De Magistris birdən uşağın suya baş vurub gözdən itdiyini, bir anda yanbızının su üzünə çıxdığını, əvvəlcə üzgəclərinin, sonra kölgəsinin, ardınca isə özünün sürətlə suyun dibinə üzdüyünü gördü. Xanı balığı təhlükəni sezəndə artıq gec idi: böyründən vurulmuş və harpunun orta dişi quyruğunun bir tərəfindən girib o biri tərəfindən çıxmışdı. Xanı tikanlı üzgəclərini düzəldib suyu döyməyə başladı, harpunun o biri dişləri gövdəsinə saplanmamışdı, quyruğu qopsa belə qaçmağa ümid edirdi. Amma üzgəclərindən birini harpunun dişlərinə qurban verdi və məğlub oldu. Artıq taxtabənd qarqaraya sarınaraq dartılmağa başlamışdı, Zefferinonun xoşbəxt, çəhrayı kölgəsi düz təpəsindəydi.

Suyun üzündə əvvəlcə xanı balığı, sonra uşağın qolu, dalınca isə borusundan sular püskürən şnorkelli baş göründü. Zefferino şnorkelini çıxara-çıxara dedi: "Gördünüz nə gözəldir? Gördünüz madmazel?" Bu, tünd gümüşü rəngdə bir xanı balığı idi. Amma qadın hələ də ağlayırdı.

Zefferino qayalardan birinin burnuna dırmaşdı. De Magistris çətinliklə onun dalınca getdi. Balığı sərin bir yerdə saxlamaq istəyən uşaq su dolu bir çuxur tapdı. Orda yan-yana uzandılar. Zefferino balığın rəngdən rəngə düşməsinə heyranlıqla baxır, pulcuqlarını sığallayır, De Magistrisin də onun kimi etməsini istəyirdi.

"Gördünüz nə gözəldi? Görün necə dişləyir?" Sonra balıqla azca da olsa maraqlanmağın kök qadını az-maz ovundurduğunu hiss edəndə, "Mən gedib baxım, bəlkə yenə nəsə vura bildim" – deyərək yenidən suya baş vurdu.

Qadın balıqla tək qaldı. Düşündü ki, heç bu qədər kədərli balıq görməyib. Barmaqlarını balığın halqa kimi açıq ağzında, qəlsəmələrində, quyruğunda gəzdirir, onun gümüş gövdəsində minlərcə balaca deşiyin açıldığını gördü. Balıqlara qırsaqqız kimi yapışan balaca su birələri çoxdan xanının canına daraşıb onu gəmirirdilər.

Zefferino bütün baş verənlərdən xəbərsizcəsinə harpunun ucunda qızılı bir umbrina ilə qayıtdı və balığı madmazel De Magistrisə verdi. Beləcə, aralarında iş bölgüsü başladı. Qadın balığı harpundan çıxarır və su dolu çuxura atırdı, Zefferino da təzəsini tutmaq üçün yenidən suya baş vururdu. Amma hər dəfə dayanıb qadına baxırdı ki, görsün ağlayır, ya yox. Bir xanı balığı, bir umbrina görəndə ağlamağı kəsməsə, görən onu başqa nə ilə ovuda bilərdi?

Umbrinanın böyründə qızılı zolaqlar, kürəyində iki sıra üzgəc vardı. Madmazel bu üzgəclərin arasında harpunun açdığı yaradan daha qədim, incə və dərin bir yara gördü. Bir qağayı balığın kürəyini elə möhkəm dimdikləmişdi ki, ölməməyi möcüzə idi. Zavallı umbrina kim bilir neçə vaxtdır bu ağrıya dözürdü!

Zefferinonun harpunundan daha sürətli olan zuban balığı bir sürü xırda və çaş-baş balığın ətrafında hərlənirdi; zuban xırda balıqlardan birini təzəcə udmuşdu ki, harpun boğazına saplandı. Zefferinonun əli heç vaxt belə gətirməmişdi.

Şnorkelini çıxararkən "Möhtəşəm bir zuban!" deyə qışqırdı. "Mən xırda balıqları qovurdum! O biri balığı udan kimi, mən də onu haqladım" Həyəcandan pəltəkləyərək həmin səhnəni təsvir etməyə çalışırdı. Bundan daha iri və gözəl balıq ovlamaq olmazdı. Zefferino istəyirdi ki, qadın da onun xoşbəxtliyini bölüşsün. Qadın balığın gümüşü iri gödvəsinə, bir az əvvəl o yaşılımtraq xırda balığı udan, indi isə harpunun dişləri ilə parçalanmış ağzına baxırdı: dənizdə həyat belədir!

***Zefferino sonra biri boz, biri qırmızı rokka, kürəyi sarı zolaqlı bir sarqan, iri bir qızıl balıq, yastı bir kupes, bir də tikanlı və bığlı lüsian tutdu. Amma madmazel De Magistris bunların hamısında harpun yarasından başqa ya su birəsindən qalma izlər, ya məchul bir xəstəliyin yaratdığı ləkələr, ya da çox-çox əvvəllər boğazlarına saplanmış qarmaqların yarasını görürdü. Uşağın kəşf etdiyi bu buxta bəlkə də ölməyə gələn heyvanların sığınacağı, ümidsiz xəstələr üçün dəniz xəstəxanası, ağrıdan dəliyə dönmüş balıqların ölümünə savaşdığı bir döyüş arenası idi.***



Zefferino indi də qayaların arasında pusquda durmuşdu: osminoqlar! Bir qayanın dibində gizlənmiş bir osminoq sürüsü kəşf etdi. Budur, harpunun ucuna taxılmış iri, bənövşəyi osminoqun yarasından su qatılmış mürəkkəb kimi maye damcılayır. Madmazel De Magistrisin birdən ürəyi sıxıldı. Osminoqun ölçülərinə uyğun təzə bir çuxur tapıldı; Zefferino onun başından ayrılmır, yavaş-yavaş rəngini dəyişdirən çəhrayı-boz osminoqu heyranlıqla seyr edirdi. Artıq xeyli vaxt keçmiş, o qədər uzun müddət suda qalmaqdan uşaq yolunmuş toyuğa dönmüşdü. Amma Zefferinonun yuvasını təzəcə kəşf etdiyi osminoq ailəsini buraxmaq fikri yox idi.

Madmazel osminoqun sürüşkən ətinə, əməcəklərinin ağzına, qırmızı, az qala, su kimi şəffaf gözlərinə baxırdı. Bu osminoq indiyə qədərki ovların içində yarası və ağrısı olmayan yeganə varlıqdır. İnsan əzələləri kimi yumuşaq, qıvrım-qıvrım bir sürü gizli qoltuqaltılı xatırladan qolları sağlam və həyat dolu idi, asta-asta bükülüb açılan əməcəkləri böyüyüb genişlənirdi. Madmazel De Magistrisin havaya qalxan əlləri, elə bil, osminoqu sığallayır, heyvanın gərilib büzülməsinə züy tutaraq get-gedə ona daha çox yaxınlaşırdı.

Axşam düşürdü, iri bir dalğa qabaran dənizin üzünü qırışdırmağa başlamışdı. Osminoqun əlləri qamçı kimi havada titrəyirdi və qəfildən onlardan biri var gücüylə qadının qoluna dolandı. Qayanın üstündə ayağa duran qadın özü-özü qolundan xilas olmaq istəyirmiş kimi, "Osminoq! Osminoq məni parçalayır!" deyə çığırmağa başladı.

***Bir kalmarı yuvasından qovan Zefferino başını sudan çıxardı, qadının qoluna dolanan osminoqun onun boynunu sarmaq istədiyini gördü. Madmazel uzun-uzun və bacardıqca bərkdən qışqırsa da, bağırtısının ancaq axırını eşitmişdi, amma deyəsən qadın artıq ağlamırdı.***

***Əlində bıçaq qaça-qaça bir adam gəldi, bıçağı osminoqun gözünə saplamağa başladı və bir həmlədə başını kəsdi. Bu, səbətini Çinpapaq midyələrlə doldurmuş və qayalıqlarda oğlunu axtarmağa çıxmış Zefferinonun atası idi. Çığırtını eşitmiş, iri eynəyinin üstündən baxıb qadını görmüş və onun köməyinə gəlmişdi. Osminoqun qolları o saat boşaldılar, sonra qadının ürəyi getdi.***

***Ayılanda osminoqun parçalandığını gördü, Zefferionun atası qızartmaq üçün osminoq tikələrini qadına hədiyyə etdi. Axşam düşmüşdü. Zefferino köynəyini geyindi. Atası qadına ən yaxşı osminoq qızartmasını necə bişirməli olduğunu başa saldı. Zefferino durub-durub madmazelə baxırdı, biriki dəfə ona elə gəldi ki, qadın yenə ağlayacaq, amma onun gözlərindən bir damcı da yaş düşmədi.***

***Dənizin dibindən quyruğunu torpağa çırpan sarqan balığının yaratdığı xırda bir toz buludu yüksəldi. Balıq tilova üz tutduğu üçün heç nədən xəbər yox idi. Zefferino dibdən üzürdü, sarqan zolaqlı böyrünü bir-iki dəfə çevirərək dalğın-dalğın səntirlədikdən sonra birdən uzaqlaşmağa başladı. Balıqla balıqçı hər yanı məsaməli və az qala çılpaq olan yosunlu qayalıqların arasından üzdülər. Zefferino, "burada artıq əlimdən qaça bilməz," deyə düşündü və elə həmin an balıq yenidən yoxa çıxdı. Dəliklərdən, oyuqlardan sıra-sıra hava qabarcıqları çıxır, sonra birdən kəsilir və başqa tərəfdə yenidən başlayırdı, pusquya yatmış kimi gözləyən dənizlaləri par-par yanırdı. Sarqan bir yuvadan gizlicə başını çıxardı, sonra başqa oyuğa girdi və çox keçməmiş uzaqdakı bir dəlikdən çölə çıxdı. Sivri bir qayanın ətrafında var-gəl edib istiqamətini dəyişdirdi, dibə üzdü; Zefferino aşağıda parlaq yaşıl bir yer gördü. Balıq həmin işıqda gözdən itdi, Zefferino da dalınca üzdü***